# Tara vurğun dərbəndli...

## yaxud Hacı Xanməmmədovu anarkən...



Hacı Dadaş oğlu Xanməmmədov 1918-ci il iyun ayının 15-də qədim Dərbənddə dünyaya göz açmışdı. Dərbənd orta məktəbini bitirəndən sonra Bakıya gəlir. Bakı orta ixtisas musiqi məktəbinə – tar sinfinə qəbul olunur. Elə bu vaxt Üzeyir Hacıbəyovla tanış olur və bu tanışlıq onun bütün həyatına təsir göstərir, onun professional musiqiçi kimi yetişməsində həlledici rol oynayır. Ü.Hacıbəyov ömrünün sonuna qədər Hacı Xanməmmədova qayğı göstərib. Sonradan Üzeyir bəy Hacını Azərbaycan radiosu xalq çalğı alətləri orkestrinə işə düzəldir. 1936-cı ildə Ü.Hacıbəyov "Koroğlu"su Azərbaycan Dövlət opera və balet teatrında tamaşaya qoyulanda Hacı simfonik orkestrdə tar partiyasını çalırdı. Həmin teatrla o 1941-ci ildə Iranda qastrol səfərində də olmuşdu...

1943-cü ildə Ü.Hacıbəyov Azərbaycan Dövlət Konservatoriyasında "Xalq musiqisinin əsasları" şöbəsini açanda ilk yadına düşənlərdən biri H.Xanməmmədov idi. Musiqi folklorunu dərindən bilən Hacı Xanməmmədov ilk bəstələrində artıq xalq musiqisindən, muğamdan zövqlə, yerli-yerində faydalanırdı. Təsadüfi deyil ki, 1944-cü ildə, yəni Zaqafqaziya respublikalarının musiqi ongünlüyündə o vaxtın gənc bəstəkarı H.Xanməmmədov "Gözəl Pəri" (sözləri Z.Cabbarzadənindir) mahnısı ilə iştirak etmişdi. Çox keçmədi ki, bu mahnı tanındı, sevildi və ifaçılarımızın repertuarında özünə layiqli yer tuta bildi.

1948-ci ildə Hacı Xanməmmədov Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə keçirilir. Təhsillə bərabər həm də o, Musiqili Komediya Teatrında bir dirijor kimi də fəaliyyət göstərir. Konservatoriyada o, əvvəlcə görkəmli pedaqoq B.Zeydmanın sinfində, daha sonra isə o vaxtın gənc bəstəkarı Qara Qarayevin sinfində təhsil alır. Hacı Xanməmmədov sonradan özü deyirdi ki, *"Qara müəllimin sinfində təhsil aldığım müddətdə çalışırdım ki, təxminən eyni yaşda olsaq da, Qara müəllimin bütün tövsiyələrini, bəstəkarlığın yazıb-yaratma prinsiplərini dərindən mənimsəyim..."*

Bu dövrdə o, simli kvartet, simfonik orkestr üçün "Uvertüra"nı, "Neftçilər süitası"nı, "Sülh uğrunda" kantatasını bəstələyir. "Sülh uğrunda" kantatası hətta Ü. Hacıbəyovun idarəsilə Azərbaycan radiosu xor və orkestrinin ifasında lentə də yazılır.

Bu iri həcmli əsərdən sonra Q. Qarayevin ona təklifi bu olur ki, diplom işi kimi tar ilə simfonik orkestr üçün bir Konsert yazsın. Təklif H.Xanməmmədovun ürəyindən olur. Onu da deyək ki, həmin əsər bu sahədə ilkin olduğu üçün H.Xanməmmədovun öhdəsinə böyük məsuliyyət düşürdü.

Tar ilə orkestr üçün Birinci Konsert dövlət imtahan komissiyası tərəfindən rəğbətlə qarşılanır və H.Xanməmmədov əla qiymətlə Konservatoriyanı bitirir. Onu da deyək ki, həmin "Konsert" ilk dəfə tarzən Əhsən Dadaşo-

vun və dirijor Çingiz Hacıbəyovun dirijorluğu ilə Azərbaycan Dövlət simfonik orkestrinin ifasında səsləndi.

Qara Qarayev o vaxt bu Konsertə belə qiymət vermişdi: *"Bu əsərin mühümlüyü ondadır ki, Şərqin ən populyar aləti olan tar ilk dəfə olaraq simfonik orkestri öz arxasınca aparır. Tara aid olan mürəkkəb partiyada qədim milli çalğı alətimizin bənzərsiz ifa xüsusiyyətləri, ahəngi və səsləniş imkanları qabarıq şəkildə özünü büruzə verir".*

Onu da deyək ki, tar ilə simfonik orkestr üçün Konsertin uğuru H.Xanməmmədovu ruhlandırdı və bunun ardınca o, müxtəlif illərdə tarla orkestr üçün daha 4 Konsert bəstələmiş oldu.

2-ci Konsertsə – onun ilk ifaçısı, xalq artisti, ustad tarzən Hacı Məmmədova ithaf olunub. Həmin Konsert, sonradan Moskvada tanınmış tarzən Əhsən Dadaşovun ifasında da dinləyicilər tərəfindən rəğbətlə qarşılandı. Bu haqda Vilnüs Dövlət Konservatoriyasının professoru, həmin konserti dinləmiş Vitautas Vanuskusun fikri çox maraqlıdır: *"Biz Azərbaycan milli çalğı aləti olan tarı simfonik orkestrlə birlikdə eşitdikdə heyran olduq. "Konsert" – klassik tərzdə yazılıb, forma etibarilə olduqca rəvandır. Bəstəkar burda heç bir xalq havalarını sitat gətirmir. Amma əsər bütövlükdə öz zəngin melodisi, mövzuların xəlqiliyi ilə bizi valeh etdi. Harmonik dil baxımından elə də murəkkəb olmayan bu Konsert öz qeyri-adiliyi ilə cazibədardır... Bəstəkar tarı, simfonik orkestri, onun ayrı-ayrı qruplarını ustalıqla bir-birinə bağlayır. Nəticədə tar olduqca qabarıq və həm də ahəngdar səslənir".*

Onu da xatırladaq ki, Tar ilə simfonik orkestr üçün 2-ci Konsert görkəmli rus dirijoru V.Fedoseyevin idarəsilə Ümumittifaq radiosunda lentə yazılıb və onun Moskva televiziyasında videoyazısı indiyəcən saxlanır.

V.Fedoseyevin bu konsert barədə fikri də maraq doğurur: *"Orkestrimiz çoxdan bəriydi ki, belə yüksək yaradıcılıq şövqü ilə əsər ifa etməmişdi..."*

H.Xanməmmədovun Tar ilə orkestr üçün bəstələdiyi 3-cü Konsert də ilk dəfə Əhsən Dadaşovun ifasında səslənib. Bu əsər özünün virtuoz üslubu və faktura cəhətdən əvvəlki "Konsert"lərin demək olar ki, davamıdır. Lakin müəllif axtarışlar apararaq tarın müxtəlif ifaçılıq üsullarından, rəngarəng ifa tərzindən məharətlə faydalanıbdır.

H.Xanməmmədov həyatda dəyərli müəllimi Qara Qarayevi itirdikdən sonra Tar üçün 4-cü Konsertini də məhz onun xatirəsinə həsr etdi. Bu Konsertinsə ilk ifaçısı xalq artisti Ramiz Quliyev oldu.

Tar ilə orkestr üçün 5-ci konsertin ilk ifası isə tarzən Ağasəlim Abdullayevin çalğısında səsləndi. Bu əsərin partiturasında da alətlərdən, necə deyərlər, qənaətlə istifadə olunub və müəllif tarın zəngin səsindən, onun texniki məziyyətlərindən bacarıqla bəhrələnə bilibdir.

Yeri gəlmişkən, onu da deyək ki, keçmiş SSRI əyyamında, Orta Asiya Konservatoriyalarında "xalq çalğı alətləri üzrə" imtahanlarda Hacı Xanməmmədovun Tarla simfonik orkestr üçün Konsertləri (xüsusilə 1 və 2-ci konsertlər) tez-tez ifa olunurdu. Həmin konsertlər Daşkənd, Alma-Ata, Düşənbə Konservatoriyalarında, xalq çalğı alətləri kafedrasının dərs proqramlarına da salınıbdır.

H.Xanməmmədovun yaradıcılığında musiqili komediyaların da öz yeri var. Məhərrəm Əlizadənin librettosu əsasında "Bir dəqiqə" və A.Xaldeyevin librettosu ilə "Bütün ərlər yaxşıdır" adlı (rus dilində) musiqili komediyaları uzun müddət Azərbaycan Dövlət Musiqili Komediya Teatrının repertuarından düşməyib.

Hacı Xanməmmədov gözəl, melodik mahnıların müəllifi kimi də yaxşı tanınır. Onun bəstələri Şövkət xanım Ələkbərova, Gülağa Məmmədov və başqa bu kimi məşhur müğənnilərin ifasında lentə alınıb və bu gün də qızıl fonda saxlanmaqdadır. Bəstəkarın mahnıları vaxtaşırı efirə-ekrana çıxır. Müğənnilər nəsli dəyişsə də Hacı Xanməmmədovun mahnıları köhnəlmir və yenə də əvvəlki təravətlə səslənməkdədir.

Hazırda elə bir müğənni yoxdur ki, H.Xanməmmədovun mahnısını oxumasın. "Yaşa könül", "Getmə, amandı", "Qurban olduğum", "Telli", "Ceyran", "Güllü", "Qarşımdan bir sona keçdi", "Qadan alım" və s.

Klassiklərdən Aşıq Ələsgərin, Mikayıl Müşfiqin poeziyası onun zövqünə daha yaxın idi.

H.Xanməmmədovun yaradıcılığında Xalq çalğı alətləri orketsri üçün əsərlər xüsusi

yer tutur. Məlumdur ki, H.Xanməmmədovun ən çox sevdiyi musiqi aləti tardır. O bir müddət Xalq çalğı alətləri orkestrində işləmiş, bu orkestrin yaradıcılıq imkanlarını bir növ tədqiq etmişdir. İlk dəfə olaraq, bu orkestr üçün "Simfoniyetta" kimi mürəkkəb bir əsəri də o yaradıb. Həmçinin "Bayram", "Azərbaycan" və buna bənzər başqa süitaların da müəllifidir. Onu deyə bilərik ki, Azərbaycan televiziyası və radiosu S.Rüstəmov adına xalq çalğı alətləri orkestrinin peşəkar kollektiv kimi formalaşmasında və püxtələşməsində H.Xanməmmədovun da müəyyən xidməti vardır. Həmin orkestrdə dirijor kimi çalışdığı illərdə bir çox bəstəkarların musiqi təfsirində və təbliğində onun rolu qeyd olunmalıdır. H.Xanməmmədov öz musiqisi ilə bu orkestrə bas və zil balabanı, müxtəlif növ tütək və digər nəfəsli alətləri də daxil etməkdən çəkinməyib.

Milli musiqi alətimiz olan Kamança ilə simfonik orkestr üçün də ilk Konserti məhz H.Xanməmmədov bəstələyib. 1990-cı ildə o, çox düşüncələrdən sonra bu Konsertdə alətin tembr xüsusiyyətlərinə, ahəng rəngarəngliyinə, simfonik qruplarla yarışmasına nail ola bilmişdi. Təsadüfi deyil ki, bu Konsert öz məzmunu, ürəyi riqqətə gətirən melodisi, maraqlı musiqi forması ilə seçilir. Müəllif muğamlarımızdan, təsnif və xalq mahnılarımızdan yeri gəldikcə yaradıcı şəkildə faydalana bilibdir.

Konsertin ilk ifaçısı, dünyadan vaxtsız getmiş kamança ustası, əməkdar artist Ədalət Vəzirov idi. O, bu əsəri ölkəmizdən uzaqlarda belə ifa etməklə, həm də onu videolentə yazdırmış, radionun qızıl fonduna hədiyyə etmişdir.



Kamança ilə orkestr üçün yazılan həmin Konsert bir neçə dəfə xalq artisti Şəfiqə Eyvazovanın ifasında da rəğbətlə qarşılanıb. Əsər istər ali, istərsə orta ixtisas musiqi məktəblərinin proqramına daxil edilibdir.

H.Xanməmmədovun professional musiqi kadrlarının yetişməsində də mühüm rolu vardır. 60 ildən artıq bir müddətdə Hacı müəllim əvvəlcə Bakı orta ixtisas musiqi məktəbində, 1957-ci ildənsə Bakı Musiqi Akademiyasında dərs deyirdi. Professor H.Xanməmmədov ömrünün axırınacan pedaqoji fəaliyyətdən "yoruldum" deməmişdi.

O, müxtəlif illərdə Azərbaycan Dövlət Filarmoniyasının direktoru, Azərbaycan Dövlət mahnı və rəqs ansamblının bədii rəhbəri kimi vəzifələrdə çalışıb.

H.Xanməmmədovun xətrini onun həmkarları çox istəyirdi. Həlim xasiyyətliydi, insanlarla rəftarı düzlüyə, səmimiyyətə söykənirdi. Elə buna görə də onun hər yerdə xətri əziz tutulurdu...

Çox qədim yurd yerimiz olan Dərbənddə dünyaya gözünü açmış, böyük bir yaradıcılıq və 85 illik ömür yolu keçmiş, xalq artisti H.Xanməmmədovun sənəti və şəxsiyyəti onun bəstələdiyi musiqilərdə, mahnılarda, simfoniyalarda, bəzən də onun köksünə sıxıb dilləndirdiyi Tarın hər pərdəsində yaqin ki, yaşayacaqdır...

**Ramiz Zöhrabov**
sənətşünaslıq doktoru, professor